# KİTABXANA İŞİNİN MAHİR BİLİCİSİ

Bayramov Dəmir Əmrah oğlu 1936-cı il oktyabr ayının 15-də Gədəbəy rayonunun Qumlu kəndində anadan olmuşdur. O, 1951-ci ildə həmin kənddə yeddiillik təhsilini başa vurmuş, 1954-cü ildə umumtəhsil orta məktəbini bitirmişdir. Yeri gəlmişkən qeyd edək ki, Dəmir hələ gənc yaşlarında mədəniyyətə və onun mühüm bir sahəsi olan kitabxana işinə ürəkdən bağlanmışdı. O vaxtdan başa düşmüşdü ki, bütün bilik xəzinəsini özündə əks etdirən kitabxana olmasa, mükəmməl bilik əldə etmək mümkün deyil. Bax, elə həmin arzularla Dəmir Bayramov sənədlərini o zamankı Azərbaycan Dövlət Universitetinin filologiya fakultəsinin nəzdində olan kitabxanaçılıq şöbəsinə təqdim etdi. 1960-cı ildə artıq universitetin şərqşünaslıq fakultəsinin nəzdində olan həmin şöbəni yaxşı və əla qiymətlərlə bitirdi.

Xüsusi vurğulamaq lazımdır ki, Dəmir Bayramov həm qabiliyyətli bir tələbə kimi, həm də universitetin ictimai həyatında ciddi fəallıq göstərən bir şəxs kimi yaxşı tanınmışdı. Təsadüfi deyildir ki, fakultə həmkarlar təşkilatı sədrinin müavini, həm də xəzinədar kimi universitet həmkarlar təşkilatının diqqətində idi. Məhz buna görə də 1959-cu ildə bir qrup ictimaiyyətçi tələbələrin arasında Dəmir Bayramov da o zaman Moskvaya və Leninqrad (indiki Sankt-Peterburq) şəhərlərinə həmkarlar işi üzrə təcrübə mübadiləsinə göndərilmişdir.

D.Bayramov 1960-cı il oktyabr ayının 7-də təyinatla M.F.Axundov adına Azərbaycan Respublika kitabxanasına işə göndərilmiş və kitabxanaçı köməkçisi vəzifəsinə işə götürülmüşdü. Bunu da deyək ki, D.Bayramov M.F.Axundov adına kitabxananın köhnə binadan indiki binaya köçürülməsinə hərtərəfli kömək göstərmişdir. O, qısa zaman kəsiyində əvvəlcə kitabxanaçı, böyük kitabxanaçı vəzifələrinə dəyişdirilmişdi. 1962-ci ildən kitabxananın komplektləmə şöbədə bir ilə yaxın çalışmış və sonra 9 ildən çox kitabsaxlayıcı şöbəsində oxuculara səmərəli xidmət göstərmişdir. Yaxşı işi və bacarığı nəzərə alınaraq, 1969-cu ilin oktyabr ayında D.Bayramovu Elmi-metodik kitabxanaşünaslıq şöbəsində baş kitabxanaçı vəzifəsinə işə götürmüşlər. Həmin vəzifədə 1994-cü ilin iyun ayına qədər işləmiş və 1994-cü il iyun ayının 15-dən etibarən həmin şöbənin müdiri vəzifəsinə irəli çəkilmişdir. Hazırda kitabxana siyasəti və metodik rəhbərlik şöbəsində öz işinin şərəflə davam etdirir. Bunu da xüsusi qeyd edək ki, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirinin əmrinə əsasən Bakı şəhəri üzrə 57 kütləvi kitabxanaya və 2 Mərkəzləşdirilmiş Kitabxana Sistemlərinə metodik köməklik göstərilməsi işi kitabxana siyasəti və metodik rəhbərlik şöbəsinə tapşırılmışdır. D.Bayramov bu vəzifənin də öhdəsindən layiqincə gəlmək üçün əlindən gələni əsirgəmir. Əlbəttə, respublikanın 76 MKS-nə göstərilən metodik köməklik bu qəbildəndir.

Dəmir Bayramovun müxtəlif illərdə qələmindən çıxan 50-dən çox vəsait, metodik məktub və metodik tövsiyələr, bundan başqa çoxlu sayda məqalələr respublikanın MKS-nə çatdırılmışdır. Şübhəsiz ki, bunlar kitabxana işçiləri tərəfindən razılıq və minnətdarlıqla qarşılanmışdır. Bunlardan xalqımızın ümummilli lideri "Heydər Əliyev irsinin öyrənilməsi və təbliği sahəsində kitabxanaların vəzifələri" (B.,2005), "Xalq şairi Səməd Vurğunun anadan olmasının 100 illik yubileyi" (B.,2006), "Böyük Vətən müharibəsində Qələbənin 60 illiyi və kitabxanaların qarşısında



***Haqqında söhbət açdığımız Dəmir Bayramov sözün həqiqi mənasında özünün prinsipiallığı və çevikliyi ilə diqqət çəkir, humanizm və vətənpərvərlik duyğularını özündə ehtiva edən, özünə və ətrafında olan adamlara tələbkarlığı, peşəkar kitabxana mütəxəssisi, kitabxana təəssübkeşi və s. keyfiyyətləri, eləcə də demokratik düşüncə tərzi ilə fərqlənir.***

duran vəzifələr" (B.,2005), "Əlamətdar və tarixi günlər təqvimi 2006: metodik materiallar toplusu" (B.,2005), "Kitabxanalarda mülki müdafiə ədəbiyyatının təbliği" (B.,1972), "Kitabxanalarda kənd təsərrüfatı ədəbiyyatının təbliği" (B.,1978), "Kitabxanalarda hərbi-vətənpərvərlik ədəbiyyatının təbliği" (B.,1974), "Mərkəzləşdirmə şəraitində kitabxana fondlarının komplektləşdirilməsi, mühafizəsi, sistemdaxili kitab mübadiləsindən və kitabxanalararası abonementdən səmərəli istifadənin təşkili" (B.,1983) və s. adda vəsaitləri; "Analitik təsvir haqqında ümumi anlayış" (M.Nəcəfova ilə birlikdə), "Analitik təsvirin əsas qaydaları haqqında" (M.Nəcəfova ilə birlikdə), "Kitabların təsnifləşdirilməsinin metodikası", "Kitabxana plakatı", "Komplektləşdirmə şöbəsinin işi haqqında", "Səyyar kitabxanaların iş texnikası " və s. kimi məqalələri göstərmək olar.

Qeyd etmək lazımdır ki, D.Bayramov bu yazıda adını çəkdiyimiz 2006-cı il üçün "Əlamətdar və tarixi günlər təqviminin" hazırlanmasında bir yazı ilə çıxış etmiş və onun ixtisas redaktorlarından biri olmuşdur.

Xüsusi qeyd etməliyik ki, Dəmir Bayramov 1987-ci ildə Azərbaycan Respublikasında Mülki müdafiə ədəbiyyatının səmərəli təbliğində böyük fəallıq göstərdiyinə görə keçmiş SSRİ-nin Mülki- müdafiə əlaçısı adına layiq görülmüş və döş nişanı ilə təltif olunmuşdur.

D.Bayramov 1994-cü ildə Bakı Qarnizonu "Qırmızı Şərq" Zabitlər klubunda "XIX əsr Azərbaycan qadın şairlərinin ən istedadlı nümayəndəsi olan Xurşudbanu Natəvan"ın ədəbi-bədii gecəsində öz fəal iştirakına görə çox ətraflı və maraqlı məruzəsinə görə Müdafiə Nazirliyinin fəxri fərmanı ilə təltif olunmuşdur.

D.Bayramov M.F.Axundov adına kitabxana tərəfindən vaxtı ilə buraxılan elmi əsərlərin də işində öz maraqlı yazıları ilə çıxış etmişdir. Bunlardan görkəmli biblioqraf Məryəm xanım Nəcəfovanın xatirəsinin əbədiləşdirilməsi üçün onun biblioqrafik fəaliyyətini hazırlayıb bütün kitabxana işçilərinə təqdim etmişdir. Bununla yanaşı, "Kitabxanalarda oxucu marağının öyrənilməsi" adlı yazısı da hazırlanıb kitabxanalara təqdim olunmuşdur.

D.Bayramov M.F.Axundov adına kitabxanada çalışdığı keçmiş illərdə və kitabxananın Milli Kitabxana statusuna layiq görüldüyü indiki şəraitdə həm respublikanın MKS-də, həm də Bakı şəhəri üzrə kütləvi kitabxanaların işçilərinin metodiki cəhətdən maariflənməsinə böyük bacarıq və qüvvə sərf etmiş və indi də edir. Şəxsən mənim gözümün qarşısında elə günlər olub ki, həm respublikanın MKS, həm də Bakı şəhərinin müxtəlif kitabxanalarından şöbəyə gələn 10-15 nəfərdən çox kitabxana işçisinin sorğusuna yetərincə cavab vermişdir. Onun demək olar ki, gün ərzində boş vaxtı olmur. Belə ki, bir tərəfdən də telefon zəngləri ara vermir. Müxtəlif sualların cavabını bəzən dəstəyi yerə qoymadan verir.

D.Bayramov Bakı Mədəni-maarif texnikumu Kitabxanaçılıq şöbəsinin M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında tədris və istehsalat təcrübəsi keçən tələbələrin təcrübəsini düzgün təşkil edir, onların təcrübi cəhətdən biliklərinin artırılmasına hərtərəfli kömək göstərir. Bununla yanaşı, D.Bayramov Respublika kitabxana işçilərinin hazırlıq və ixtisasartırma mərkəzində saathesabı dərs deyir. Mən qətiyyətlə deyə bilərəm ki, ondan narazı qalan müdavim yoxdur. Ona görə ki, D.Bayramov hər bir işə ürəkdən və məsuliyyətlə yanaşır. O həmişə öyrətməyə çalışır və özü də bütün yenilikləri öyrənməyə səy göstərir.

D.Bayramov Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyinin aylıq nəşri olan "Mədəni-maarif" jurnalı ilə də səmərəli əməkdaşlıq edir. Onun tərəfindən hazırlanıb həmin jurnalda çap olunan "Ə.Xələfovun biblioqrafik fəaliyyəti", "Kitabxanalarda uçot, hesabat və statistika işini necə təşkil etməli?", "Kitabxanalarımız müharibə illərində", "Kitabxanalara metodik rəhbərliyinin təşkilinin daha da yaxşılaşdırılması", "Uzaqgörən təşkilatçı (Milli kitabxanın bölmə müdiri B.Ələsgərov haqqında)", "Oxucu yaddaşında heykəlləşən biblioqraf (Milli kitabxanın mərhum şöbə müdiri H.Zeynalova haqqında)" və s. maraqlı və diqqəti çəkən yazılar respublikamızın MKS-də, eləcə də Bakı şəhərinin kütləvi kitabxanalarında və başqa kitabxanalarda çalışan işçilərin dərin marağına səbəb olmuşdur. Ümumiyyətlə, müəllifin ünvanına müxtəlif kitabxanalardan daxil olan minnətdarlıq məktubları D.Bayramovun yaradıcılıq gücünü daha da artırmaqdadır.

Xüsusi qeyd etmək lazımdır ki, D.Bayramov 46 ildir ki, Respublikamızın M.F.Axundov adına Milli Kitabxanasında özünün qüsursuz əmək fəaliyyətini davam etdirir. Onun strateji məqsədi bundan ibarətdir ki, Milli Kitabxanamız bundan sonra da inkişaf edərək çiçəklənsin, onun respublikamızın bütün kitabxanalarına metodik rəhbərlik işi günün tələbləri səviyyəsinə çatdırılsın.

Qarşıdan D.Bayramovun anadan olmasının 70 illik yubileyi gəlir. O, həm də əmək veteranıdır. Kitabxanamızın direktorluğu, onun çalışdığı şöbənin əməkdaşları və qədirbilən kitabxana kollektivi adından yubilyarı ürəkdən təbrik edərək, ona möhkəm can sağlığı və yeni-yeni uğurlar arzulayırıq.

**Bəybala ƏLƏSGƏROV,**

***Beynəlxalq Nobel İnformasiya Mərkəzinin həqiqi üzvü, BNİM-in Qafqaz və Orta Asiya ölkələri üzrə səlahiyyətli nümayəndəsi***